Academic Journal of History and Idea Академическая История и Мысль
Akademik Tarih ve Düşünce Dergisi
ISSN: 2148-2292
*Araştırma Makalesi* *https://doi.org/10.46868/atdd.82* ***Original Article***

# Azərbaycan-Özbəkistan Əlaqələrində Diaspora Təşkilatlarının Rolu

**Seide Kuliyeva***

**ORCID: 0000-0003-4320-3425**

**Öz**

Xaricdə yaşayan azərbaycanlılarla əlaqədar tədqiqatlar Azərbaycan tarixi üçün bir çox vacib məsələləri aydınlaşdırmağa kömək edir. Bu tədqiqatlar vasitəsilə müasir dövrdə Azərbaycanın xarici siyasəti, xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin qurulması, tarixi-demoqrafik proseslərin tədqiqinə dair mühüm nəticələr əldə etmək mümkündür. Məqalədə diaspora təşkilatlarının dövlətlərarası əlaqələrin inkişafında rolu araşdırılır. Bu məqsədlə Özbəkistanda həyata keçirilən tədbirlərin məzmunu və ictimaiyyət ilə görüşlər təhlil edilir. Diaspora fəaliyyətinə dair məlumatlar tədqiqata cəlb edilir, keçirilən tədbirlər qruplaşdırılır, bu fəaliyyətin dövlətlərarası və xalqlararası əlaqələrin inkişafında rolu təhlil edilir.Azərbaycanın müxtəlif dövlətlərlə əlaqələrinin qurulması və xaricdə Azərbaycanın təbliği prosesində xaricdə yaşayan azərbaycanlıların, o cümlədən səfirliklərin mühüm rolu vardır. Tədqiqatımıza əsasən, deyə bilirik ki, əsrlərdir Özbəkistanda yaşayan azərbaycanlılar əsasən, XX əsrin sonlarında – bütün SSRİ-də milli-azadlıq hərəkatının başlaması ilə təşkilatlanmağa başladılar. Əlbəttə ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları da bu prosesə təsir etmiş, burada yaşayan azərbaycanlılar öz tarixi Vətənlərinə – Azərbaycana kömək üçün birləşmişlər. Azərbaycan və Özbəkistan müstəqil dövlətlər kimi yeni münasibətlər qurmağa başladıqda Özbəkistanda yaşayan azərbaycanlılar dövlətlərarası münasibətlərin inkişafı prosesində iştiraka başladılar. Hazırda Özbəkistan azərbaycanlıların fəal diaspora fəaliyyəti göstərdiyi dövlətlərdən biridir. Xaricdə yaşayan azərbaycanlılar və Azərbaycan respublikasının səfirlikləri dövlətlərarası əlaqələrin qurulmasında və Azərbaycanın təbliği istiqamətində mühüm rol oynayırlar.

**Açar sözlər:** Azərbaycan, Özbəkistan, diaspora, miqrasiya, Azərbaycan Mədəniyyət Mərkəzi

**Gönderme Tarihi: 26/08/2020** **Kabul Tarihi:29/12/2020**

---

* *Dosent, Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Dünya azərbaycanlıları tarixi-demoqrafiya ETL-nin böyük elmi işçisi,Bakı, Azerbaycan, saidaquliyeva@bsu.edu.az.*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
KULİYEVA, S., ''Azərbaycan-Özbəkistan Əlaqələrində Diaspora Təşkilatlarının Rolu'', *Akademik Tarih ve Düşünce Dergisi*, C. 7, S. 4., 2020, s. 2732-2750.

# The Role of Diaspora Organizations İn Azerbaijan-Uzbek Relations

**Seide Kuliyeva***

**ORCID: 0000-0003-4320-3425**

**Abstract**

Studies on Azerbaijanis living abroad help to clarify many important issues in the history of Azerbaijan. Thanks to these studies, important results can be achieved on historical and demographic changes, as well as the foreign policy of Azerbaijan in the modern era, and the establishment of relations with Azerbaijanis living abroad. The article discusses the role of diaspora organizations in the development of international relations. The content of activities and meetings with Uzbek people are analyzed. In the study, the activities of the diaspora, the development of the relations between the peoples and the states are examined, the events are grouped and the role of these actions is analyzed. Research shows that Azerbaijanis, who have lived in Uzbekistan for centuries, began to organize with the start of the national liberation movement in the USSR at the end of the twentieth century. Of course, Armenia's territorial claims against Azerbaijan also affected this process, and the Azerbaijanis living here united to help their historical homeland Azerbaijan. When Azerbaijan and Uzbekistan started to re-establish their relations as independent states, Azerbaijanis living in Uzbekistan started to participate in the process of developing inter-state relations. Currently Uzbekistan is one of the states where Azerbaijanis are active in diaspora. Azerbaijanis and embassies living abroad play an important role between Azerbaijan and various countries as well as Azerbaijani propaganda abroad.

**Keywords:** Azerbaijan, Uzbekistan, diaspora, migration, Azerbaijani Cultural Centers

**Received Date: 26/08/2020** **Accepted Date: 29/12/2020**

* *Assoc. professor, Baku State University, Faculty of history, Senior Research Fellow of World Azerbaijanis history-demography ETL, Baku, Azerbaijan, saidaquliyeva@bsu.edu.az.*

***You can refer to this article as follows:***
KULİYEVA, S., ‘’The Role of Diaspora Organizations İn Azerbaijan-Uzbek Relations’’, *Academic Journal of History and Idea,*, C. 7, S. 4., 2020, s. 2732-2750.

# Роль диаспорских организаций в Азербайджано-Узбекских отношений

**Резюме**

Исследования азербайджанцев, проживающих за рубежом, помогают прояснить многие важные темы в современной истории Азербайджана. Благодаря этим исследованиям можно добиться важных результатов в исследовании исторических и демографических изменений, а так же о внешней политики Азербайджана в современную эпоху, установив отношения с азербайджанцами, проживающими за рубежом.В статье рассматривается роль диаспорских организаций в развитии межгосударственных и международных отношений. Анализируются содержание мероприятий и встреч с узбекской общественностью. В рамках исследования изучается деятельность диаспоры, развитие ее отношений между народами и государствами, дается анализ этих действий. Исследования показывают, что азербайджанцы, веками жившие в Узбекистане, начали организовываться с началом национально-освободительного движения в СССР в конце XX века. Конечно, территориальные претензии Армении к Азербайджану также повлияли на этот процесс, и проживающие здесь азербайджанцы объединились, чтобы помочь своей исторической родине Азербайджану. Когда Азербайджан и Узбекистан начали восстанавливать свои дипломатические отношения как независимые государства, азербайджанцы, проживающие в Узбекистане, начали участвовать в процессе по развитию межгосударственных отношений. В настоящее время Узбекистан является одним из государств, где азербайджанцы активно работают в диаспоре. Азербайджанцы, проживающейся за границей, а также посольства, играют важную роль в установление отношений Азербайджана с различными странами, так же в пропоганде Азербайджана за рубежом.

**Ключевые слова:** Азербайджан, Узбекистан, диаспора, миграция, Азербайджанский Культурный Центр

**Получено: 26/08/2020** **Принято: 29/12/2020**

## Giriş

Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların mərkəzinə çevrildi. Qısa müddətdə xaricdə yaşayan azərbaycanlıların Vətənlə əlaqələri yarandı. Bu əlaqələr, eyni zamanda onların yaşadıqları ölkələrlə Azərbaycanın əlaqələrinin inkişafına da təsir etdi. Əlaqələrin həyata keçirilməsi ilə yanaşı, azərbaycanlılar müxtəlif təşkilatlar qurmağa və diaspora fəaliyyətinə başladılar.

Baş verən proseslərlə yanaşı, əlaqələrin qurulması və diaspora fəaliyyəti üçün elmi əsaslar vacib idi. Bu məqsədlə azərbaycanlıların xaricə miqrasiyasının səbəbləri, istiqamətləri elmi cəhətdən araşdırılmağa başlandı. Xaricdə yaşayan azərbaycanlılarla əlaqədar tədqiqatlar Azərbaycan tarixi üçün bir çox maraqlı məsələləri aydınlaşdırmağa kömək edir. Bu tədqiqatlar vasitəsilə müasir dövrdə Azərbaycanın xarici siyasəti, xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin qurulması, tarixi-demoqrafik proseslərin tədqiqinə dair mühüm nəticələr əldə etmək mümkündür.

Bu istiqamətdə aparılan tədqiqatlarda tarixi Azərbaycan ərazilərində yaşayan əhalinin miqrasiyasının mərhələləri və istiqamətləri aydınlaşdırılmışdır.[1] Əhalinin kütləvi miqrasiya dövrü XX əsrin əvvəllərində Sovet işğalları ilə əlaqədar olmuşdur. Miqrasiyanın istiqamətləri azərbaycanlıların həm SSRİ xaricinə, həm də daxildə köçlərin olduğunu sübut edir. Bu prosesdə insanlar daha çox rahat uyğunlaşacağı, əmək və təhsil imkanları olan, yerli əhali ilə dil, din, məişət ortaqlığına, xüsusilə təqib edilməyəcəyinə əhəmiyyət verirlər. Həmin dövrdə azərbaycanlıların əsas mühacirət etdikləri xarici ölkələrdən birincisi Türkiyə, SSRİ daxilində isə Mərkəzi Asiyanın bölgələri olmuşdur. Könüllü[2] köçən azərbaycanlıların əksəriyyəti müasir Özbəkistan ərazisinə miqrasiya etmişlər. Özbəkistan azərbaycanlıların Mərkəzi Asiyada əsas məskunladığı ərazilərdən biri olmuşdur.

Sovet dövründə keçirilən əhali siyahıyaalma materialları Özbəkistanda yaşayan azərbaycanlılarının sayını aydınlaşdırmağa imkan verir: 1926-cı ildə burada 21.565 nəfər, 1959-cu ildə 40.511 nəfər, 1979-cu ildə 59.779 nəfər, 1989-cu ildə 44.410 nəfər

---

[1] Azərbaycanlıların xaricə mühacirətinin mərhələləri barədə bax: *Azərbaycan tarixi*, C.5-7. 2008; *Azərbaycan diasporu: böyük yolun başlanğıcı*, Çaşıoğlu, Bakı 2006, s.6-7; *Azərbaycan diasporu: ensiklopedik məlumatlar toplusu*, Çaşıoğlu, Bakı 2012, s.214, s.286-288

[2] Sovet rejiminin repressiya və deportasiya siyasəti nəticəsində məcburi köçlər də olmuşdur.

yaşamışdır.[3] Azərbaycan diasporuna aid topluda 2011-2012-ci illərdə Özbəkistanda 41 min nəfər azərbaycanlının yaşadığı bildirilir. Azərbaycanlılar, əsasən, Səmərqənd (təqribən 8 min), Buxara (4 min), Sırdərya və Fərqanə vilayətlərində sıx yaşayırlar.[4]

Özbəkistanda yaşayan azərbaycanlıların tarixi-demoqrafik tədqiqi və diaspora fəaliyyətinin təşkili göstərir ki, tarixin müxtəlif dövrlərində bura köçən azərbaycanlılar ölkənin siyasi, iqtisadi, mədəni həyatında fəal iştirak edirlər. Özbəkistanda yaşayan azərbaycanlılar tarixi, milli, dini və mənəvi bağlı olduqları toplumda yad hesab edilmirlər.[5]

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Özbəkistan azərbaycanlıların fəal diaspora fəaliyyəti göstərdiyi dövlətlərdən biridir. Müstəqil Azərbaycan və Özbəkistan Respublikaları arasında əlaqələrin həyata keçirilməsində və inkişafında, Azərbaycanın təbliğində diaspora təşkilatlarının və səfirliyin özünəməxsus rolu vardır.

Məqalədə diaspora təşkilatlarının dövlətlərarası əlaqələrin inkişafında rolu araşdırılır. Bu məqsədlə diaspora fəaliyyətinə dair məlumatlar tədqiqata cəlb edilir, keçirilən tədbirlər qruplaşdırılır, tədbirlərin məzmunu və Özbəkistan ictimaiyyəti ilə görüşlər, bu fəaliyyətin dövlətlərarası və xalqlararası əlaqələrin inkişafında rolu təhlil edilir.

Azərbaycanın müxtəlif dövlətlərlə əlaqələrinin qurulması və xaricdə Azərbaycanın təbliği prosesində xaricdə yaşayan azərbaycanlıların, diaspora təşkilatlarının, o cümlədən səfirliklərin mühüm rolu vardır.

## Özbəkistan azərbaycanlılarının təşkilatlanması və diasporanın yaranması

Özbəkistanın sovet dövrü ədəbiyatlarında neft sənayesinin təşkili üçün bura gələn azərbaycanlıların ilk təşkilatlar yaratdığı (milli azlıqlar Şurasının Azərbaycan bürosu, mədəniyyət mərkəzləri v.s.), azərbaycanlıların 1961-ci ildə özbəklərlə birlikdə təntənəli şəkildə Novruz bayramını təşkil etmələri barədə məlumatlar vardır.[6] Lakin əsrlərdir Özbəkistanda yaşayan azərbaycanlılar əsasən, XX əsrin sonlarında – bütün SSRİ-də

---

[3] Vsesoyuznaya Perepisı Naseleniya 17 Dekabrı 1926 Qoda. Narodnostı I Rodnoy Yazık SSSR. Tabliça I, Naselenie Po Polu, Narodnosti I Kateqoriyam Naselennıx Mest Po Soyuznım Respublikam, Tom 10, İzdanie ÇSU Soyuza SSR, Moskva 1928, s.16-17; Vsesoyuznaya perepis' naseleniya 1959 goda. Nacional'nyi sostav naseleniya po respublikam SSSR, RGAE RF (byv. CGANH SSSR), fond 1562, opis' 336, ed.hr. s.1566a -1566d; Vsesoyuznaya perepis' naseleniya 1979 goda. Nacional'nyi sostav naseleniya po respublikam SSSR, RGAE RF (byv. CGANH SSSR), fond 1562, opis' 336, ed.hr. s.6174-6238; Vsesoyuznaya perepis' naseleniya 1989 goda. Nacional'nyi sostav naseleniya po respublikam SSSR, Tablica 9s. Raspredelenie naseleniya po nacional'nosti i rodnomu yazyku, http://www.demoscope.ru/weekly/ssp/sng_nac_89.php?reg=4 (05.05.2018).

[4] *Azərbaycan diasporu, ensiklopedik məlumatlar toplusu*, s.283.

[5] Seide Kuliyeva, "Özbekistan`da Yaşayan Azerbaycanlı Toplumu: Tarihsel-Demografik Araştırma", *Oğuz-Türkmen Araştırmaları Dergisi*, C. II, S.1, Haziran, Bilecik 2018, s.27-52

[6] *Etnicheskii atlas Uzbekistana*, OOFS-Uzbekistan i LIA "R. Elinina", 2002, s.15-18.

milli-azadlıq hərəkatının başlaması ilə təşkilatlanmağa başladılar. Əlbəttə ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları da bu prosesə təsir etmiş, burada yaşayan azərbaycanlılar öz tarixi Vətənlərinə – Azərbaycana kömək üçün birləşmişdilər.

1989-cu ilin sentyabrında Daşkənddə yaradılan "Qardaşlıq" mərkəzi, 1992-ci ilin aprelində Səmərqənddə açılan Azərbaycan-Özbəkistan Mədəni-İqtisadi Münasibətlər Cəmiyyəti, Özbəkistan azərbaycanlılarının "Turan" konqresi ilk birliklərdən hesab edilir. Bu təşkilatların məqsədi Azərbaycan diasporunu təşkil etmək, Azərbaycanda baş verən hadisələrlə tanış olmaq, milli dəyərləri qorunmaq, Azərbaycan və Özbəkistan arasında əlaqələrin inkişafında iştirak etmək idi.

1991-ci ildə Azərbaycan və Özbəkistan yenidən müstəqil dövlət kimi əlaqələrini qurmağa başlayanda, bu əlaqələrin inkişafında Özbəkistanda yaşayan azərbaycanlılar da xidmətlərini göstərməyə başladılar. Həmin illərdə Ermənistanın Azərbaycana hərbi təcavüzünə etiraz edən Özbəkistan ictmaiyyəti və azərbaycanlılar birlikdə "Qarabağa yardım komitəsi" yaratmışlar.[7]

Azərbaycan Respublikasının dövlət və hökumət rəhbərlərinin Özbəkistana səfəri zamanı burada yaşayan azərbaycanlılarla görüşü, onların problemləri ilə maraqlanmaları, diaspora vəzifələrinin izahı Azərbaycan həqiqətlərinin dünyaya yayılmasında, onların məqsədyönlü fəaliyyətinə təsir etmişdir.[8] Məhz səfirliyin yaranması bu ölkədə diaspora fəaliyyətinin mərkəzləşdirilməsi üçün əsas olmuşdur. 2001-ci ildə ildə Bakıda Dünya azərbaycanlılarının I qurultayının keçirilməsi bütün dünyada olduğu kimi, Özbəkistanda yaşayan azərbaycanlılar üçün Vətənlə əlaqələrinin qurulması və yaşadıqları ölkələrin vətəndaşı kimi ikitərəfli əlaqələrin inkişafında iştirak etməkləri üçün yeni vəzifələr müəyyən etdi.

Özbəkistan respublikasının qanunvericiliyinə əsasən, azərbaycanlılar milli-mədəni mərkəzlər təşkil edirlər. Xaricdə yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi[*] tərəfindən nəşr edilən "Azərbaycan diasporu: böyük yolun başlanğıcı" kitabında Özbəkistanda 2004-2005-ci illərdə Azərbaycan Mədəniyyət mərkəzi, Azərbaycan Gənclər Təşkilatı, Azərbaycan Qadınlar Şurası, Daşkənd Azərbaycan Gənclər Təşkilatının yarandığı göstərilir. Bu təşkilatların Azərbaycan Mədəniyyət mərkəzləri Assambleyasının nəzdində yaradıldığı bildirilir. Həmçinin, kitabda azərbaycanlıların

---

[7] Sevinc Ruintən, *Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri)*, Adiloğlu, Bakı 2005, s.100-113.
[8] Heydər Əliyev, *Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr*, C.10, 1998, s.218-230.
[*] 2008-ci ildən Diaspora ilə İş Komitəsi.

ana dilini qorunmaq üçün 2004-cü ildə yaradılmış 2 Bazar günü məktəbinin fəaliyyət göstərdiyi də bildirilir.[9]

Hazırda Azərbaycanın Özbəkistandakı səfirliyin nəzdində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət mərkəzi, Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzi (2003-2010-cu illərdə Özbəkistanın Azərbaycan Mədəniyyət Mərkəzləri Assosiasiyası, Mərkəzin Buxara, Sırdərya, Səmərqənd, Daşkənd, Nəvai vilayətlərində filialları, Ağsaqqallar, Qadınlar və Gənclər Şuraları vardır), "Qardaşlıq" təşkilatı fəaliyyət göstərir.[10]

**Diasopa təşkilatlarının Azərbaycanın təbliği və dövlətlərarası əlaqələrin inkişafı istiqamətində fəaliyyəti**

Özbəkistanda yaşayan azərbaycanlıların yaratdıqları diaspora təşkilatları Azərbaycanın təbliğini və dövlətlər arasında əlaqələrin inkişafını müxtəlif tədbirlər vasitəsilə həyata keçirirlər.

Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin Daşkənd, Səmərqənd, Fərqanə, Xivə, Sırdərya və digər şəhərlərdə filialları fəaliyyət göstərir. Əsas vəzifələrindən biri ana dilinin qorunmasıdır və bu işi uğurla həyata keçirirlər, hətta müsabiqələr təşkil edirlər. Assosiasiyada qadın rəqs ansambılı fəaliyyət göstərir. Daşkəndin Mirabad rayon 147 saylı orta məktəbində Azərbaycan dilini öyrədən sinif fəaliyyət göstərir. Məktəbdə millətindən asılı olmayaraq arzu edən şəxs Azərbaycan dilini öyrənə bilər. 2004-cü ildən mərkəzin öz binası var. Binada Azərbaycan dili, kompüter, rəqs kursları, uşaqlar üçün yaradıcılıq studiyası, kitabxana fəaliyət göstərir. Mərkəz azərbaycanlıları tarixi Vətənlərinin siyasi, iqtisadi və mədəni həyatı ilə əlaqəli qəzet-jurnal və ədəbiyyatla təmin edir.[11] Uzun müddətdir ki, mərkəzə Firdovsi Hüseynov rəhbərlik edir.

Daşkənddə açılan Heydər Əliyev adına Mədəniyyət Mərkəzi Azərbaycan səfirliyinin nəzdində fəaliyyət göstərir və azərbaycanlıların sıx yaşadıqları Mirabad rayonunda yerləşir; Azərbaycan və Özbəkistan arasında mədəni əlaqələrin inkişafında fəal iştirak edir; Azərbaycan dili kursları, "Azərbaycan qızları" adlı rəqs qrupu və "Mənim Azərbaycanım" adlı musiqi qrupu daimi fəaliyyət göstərir. Azərbaycan tarixinin təbliği və turizmin təşviqi də mərkəzin fəaliyyətində vacib istiqamətlərdən

---

[9] *Azərbaycan diasporu: böyük yolun başlanğıcı*, s.48-54, s.119-121; S.Kuliyeva, *a.g.e.*, s.27-52.

[10] Özbəkistanda fəaliyyət göstərən diaspora təşkilatları. Diaspor xəritəsi, Diasporla İş üzrə Dövlət Komitəsinin saytı, http://diasporamap.com/az/country/250 (20.09.2020).

[11] Respublikanskiy Azerbaydjanskiy Naçionalınıy Kulıturnıy Çentr, (02.06.2018); *Uzbekiston umumii uiimiz*, «Uzbekiston» nashriyot-matbaa ijodii uii, Toshkent 2004, s.131.

biridir. Mərkəz Özbəkistanda yaşayan mədəniyyət adamları ilə Azərbaycanda olan həmkarlarının bir-biri ilə əlaqələr qurmasını təşkil edir. Burada kitab, qəzet, jurnal və elektron nəşrlər olan zəngin kitabxana vardır. Mərkəzin tərkibində 3 muzey fəaliyyət göstərir: Azərbaycan-Özbəkistan dostluq muzeyi, Heydər Əliyev muzeyi və Azərbaycan dövlətçiliyi və tarixi muzeyi. Mərkəzin təşəbbüsü ilə Özbəkistanda Azərbaycan mədəniyyət və incəsənət xadimlərinin iştirakı ilə müxtəlif tədbirlər keçirilir. Bu tədbirlərdə azərbaycanlılarla yanaşı, Özbəkistan xalqı, rəsmi dövlət nümayəndələri, mədəniyyət və elm xadimləri də həvəslə iştirak edirlər. Nəticədə, həm özbəklərin Azərbaycan mədəniyyəti ilə tanışlıq imkanı yaradılır, həm də Özbəkistanda yaşayan azərbaycanlılar öz həmvətənləri ilə görüşürlər. Mərkəz müntəzəm olaraq qarşılıqlı səfərlər, müxtəlif müəssisələrarası əlaqələrin qurulması, müsabiqələrin keçirilməsi və digər bu kimi istiqamətlərdə layihələr, xeyriyyə tədbirləri keçirir. Məhz Mədəniyyət Mərkəzinin fəaliyyəti nəticəsində son illərdə müntəzəm olaraq Özbəkistan mətbuatında Azərbaycan barədə təbliğat materialları çap edilir. Eyni zamanda, beynəlxalq elektron ensiklopediyalarda Azərbaycana aid müxtəlif materialların özbək dilində səhifələri yaradılmışdır.[12] Mərkəzə 2013-cü ildən Samir Abbasov rəhbərlik edir.

Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü, Azərbaycanın Özbəkistandakı Səfirliyinin, habelə Özbəkistan Milli Mətbuat Agentliyinin dəstəyi ilə hər il Özbəkistan mətbuatında – qəzet və televiziyalarda, saytlarda Azərbaycan tarixi, mədəniyyəti, turizmi, Ermənistanın Azərbaycana əsassız ərazi iddiası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan-Özbəkistan dostluğuna və dövlətlərarası əlaqələrin inkişafına dair çoxsaylı materiallar hazırlanır, video materiallar nümayiş etdirilir. Adətən, ilin sonunda - Dünya azərbaycanlılarının həmrəyliyi günündə bu materiallara dair müsabiqə keçirilir və qaliblər mükafatlandırılır. [13] Hər il keçirilən bu müsabiqə diaspora təşkilatlarımızın il boyu uğurlu fəaliyyətini əhatə edir, xalqlar arasında əlaqələrin inkişafı və yaxınlaşmasında müstəsna əhəmiyyətə malikdir.

2004-cü ildə Buxarada Azərbaycan mədəniyyət mərkəzi açılmışdır. Bu mərkəz də əsasən mədəni və ictimai təşkilat kimi fəaliyyət göstərir.

---

[12] Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi, http://azculture.uz/az/index.html (05.01.2020).
[13] Özbəkistanda Azərbaycana dair "İlin ən fəalları, yaxşıları" müsabiqəsinin qalibləri mükafatlandırılıb, http://azculture.uz/xeber.php?year=2019&news=216 (04.01.2020); Özbəkistanda Azərbaycan haqqında müxtəlif nominasiyalar üzrə "İlin qalibləri" müsabiqəsinə yekun vurulub, https://azertag.az/xeber/Ozbekistanda_Azerbaycan_haqqinda_muxtelif_nominasiyalar_uzre_Ilin_qalibleri_musabiqesine_yekun_vurulub-1677623?fbclid=IwAR0IbPszIn7gzvy5LlF5Nu-CAVVgyTIRMV_ewo-UKmikpxfAkLXIYFQ4-h8#.X-1wFZdiKSU.facebook (29.12.2020).

Azərbaycanlılar diaspora təşkilatlarının ağsaqqallar şurası, qadınlar birliyi və gənclər şuraları yaratmaqla qurduqları təşkilatlarda bütün yaş qruplarından olan insanların maraqlarını təmin etməyə imkan yaratmışlar. Bununla da təşkilatlar diaspora fəaliyyətini uğurla həyata keçirirlər.

Qarşılıqlı olaraq bir-birinin ictimai və mədəni həyatında iştirak xalqlar arasında əlaqələrin inkişafına mühüm töhvə verir. Əlbəttə ki, bu proses Azərbaycanın təbliğində və dövlətlərarası əlaqələrin inkişafında real nəticələr əldə etməyə səbəb olur.

Müntəzəm olaraq Azərbaycan respublikasının dövlət bayramları, Azərbaycan tarixinin əlamətdar günləri xüsusi diqqətlə təşkil edilir.

Mədəniyyət sahəsində tədbirlər daha rəngarəng və təmtəraqlı keçirilir. İki ölkə arasında mədəni əlaqələrin tarixi zənginliyi Rusiya imperiyası və Sovet hakimiyyəti illərində davam etdirilmiş, daha da sıxlaşmışdır. Özbəkistanda maarif sahəsində xidmət göstərən görkəmli şəxslərdən Soltan Məcid Qənizadənin, Azərbaycanda Mahmud Kaşqarinin "Divani lüğət -ət Türk" əsərinin ilk tərcüməsini Xalid Səid Xocayevin adı maarif və ədəbiyyat sahəsində əlaqələrin dərinliyini göstərən sadəcə bir nümunədir. Hər iki xalqın tarixində belə nümunələr çoxdur.

Müntəzəm olaraq Özbəkistanın əsas şəhərlərində Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri keçirilir. Özbəkistanla Azərbaycan arasında ortaq tarixi-mədəni əlaqələr Novruz bayramı günlərində xüsusilə qabarıq görünür. Diaspora təşkilatları həm Özbəkistanda təşkil edilən Novruz şənliklərində fəal iştirak edir, həm də özləri müxtəlif xalq mərasimləri, tədbirlər təşkil edirlər. Azərbaycanın mədəniyyət və incəsənət xadimləri Novruz bayramı ilə yanaşı müntəzəm olaraq Özbəkistanda keçirilən müsabiqələrdə iştirak edir, müxtəlif tədbirlərə dəvət edilir, Azərbaycanlı şair və yazıçıların əsərləri özbək dilinə tərcümə edilir və Özbəkistanda təqdimat mərasimləri keçirilir. Məsələn, 2019-cu ildə Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması Daşkənddə özbək dilində çap edilmişdi. Özbəkistanın xalq şairi Camal Kamal Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadənin dahi söz ustadı İmadəddin Nəsimiyə həsr etdiyi "Fəryad" əsərini özbək dilinə tərcümə etmiş və Azərbaycan Mədəniyyət Mərkəzinin elan etdiyi müsabiqəyə təqdim etmişdir. Əlavə edək ki, 2019-cu ilin TÜRKSOY tərəfindən bütün türk dünyasında və Azərbaycan dövləti tərəfindən Nəsimi ili elan edilməsi ilə əlaqədar Özbəkistanda onunla əlaqədar tədbirlər keçirilmişdir.

Muğam və müxtəlif musiqi müsabiqələrində iştirak isə adi hala çevrilmişdir. Azərbaycanda keçirilən Beynəlxalq Muğam festivalında özbək ifaçılar, Özbəkistanda keçirilən Şərq təranələri musiqi festivalında isə azərbaycanlı ifaçıların çıxışları hər

zaman mehribanlıqla qarşılaşmış və yüksək qiymətləndirilmişdir. Özbəkistan Mədəniyyət Nazirliyinin təşəbbüsü, UNESCO-nun himayəsi ilə 2019-cu il aprelin 6-dan 10-dək Qaşqadərya vilayətinin mərkəzi Termez şəhərində Beynəlxalq Baxşi (aşıq) sənəti festivalı keçirilmişdir. Festivalda Azərbaycan aşıqları Aşıq Əli və Aşıq Samirə 2-ci yer tutmuşlar.

Diasporanın gördüyü uğurlu işlərdən biri 2019-cu ildə Əlişir Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetində Məhəmməd Füzuli adına Azərbaycan Mədəniyyət, Təhsil və Tədqiqatlar Mərkəzi yaradılmasıdır.[14] Burada tədqiqatların aparılması ilə yanaşı, azərbaycanlı alimlərin, şairlərin, yazıçıların iştirakı ilə müxtəlif görüşlərin, mühazirələrin, yubileylərin, açıq dərslərin, sərgi və seminarların təşkili də nəzərdə tutulmuşdur.

Diaspora təşkilatları sərgi və festivalların təşkili ilə yanaşı azərbaycanlıların ölkədə keçirilən belə tədbirlərdə iştirakına da xüsusi diqqət yetirirlər. Azərbaycanlılara aid birliklər, demək olar ki, Özbəkistanda keçirilən bütün festivallarda fəal iştirak edir, öz mədəni dəyərlərini nümayiş etdirirlər. Tədqiqatçılar isə elmi konfranslarda çıxış edir, yaranan imkanlardan istifadə edərək Azərbaycanın təbliği və xalqlararası əlaqələrin inkişafına təsir göstərməyə çalışırlar. 2019-cu ildə Ürgənc Dövlət Universitetində "Azərbaycan və Özbəkistanın ədəbi əlaqələri: Hüseyn Cavid və Çolpan - dünya dramaturgiyasının zirvəsi" adlı beynəlxalq konfrans keçirilmişdir. Tədbirdə milli geyimlər nümayiş edilmiş, "Əbədi dostluğumuz" adlı sərgi təşkil edilmiş, Ürgənc Dövlət Universitetinin tələbələri tərəfindən "Qarabağ şikəstəsi" ifa edilmişdir.[15]

Əlavə edək ki, Azərbaycan mərkəzlərində yaradılan rəqs kollektivləri ("Qardaşlıq", "Çənli bel", "Azəri") respublikada keçirilən bütün festival və bayramlarda fəal iştirak edirlər. Onların repertuarına bütün dünya xalqlarının rəqsləri daxildir.

Diaspora təşkilatları Özbəkistanda yaşayan azərbaycanlıların və Özbəkistan ictimaiyyətinin Azərbaycana səfərlərini də təşkil edirlər. Məsələn, iki ölkə arasında elm, təhsil və mədəniyyət sahəsində əlaqələrin inkişafı məqsədilə 2014-cü ildə "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin nümayəndələri Şafkat Şaripof, Erkin Nürəddinov, İsrail Şəmsimühəmmədov, Kamalliddin Behzodi, Dilfuza Rəhmətullayeva Bakıya səfər

[14] Bakıdan gələn qonaqlar yeni yaradılan Məhəmməd Füzuli adınıa Azərbaycan Mədəniyyət, Təhsil və Tədqiqatlar Mərkəzində olublar, http://azculture.uz/xeber.php?year=2019&news=185&fbclid=IwAR218ZXne2csRRi_Up5oWzMZkhVFeRHNoVwSb3ZZvLDsSLBIfPmh8TphIaw (06.11.2019).

[15] Özbəkistanda keçirilən "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri" çərçivəsində "Əbədi dostluğumuz" adlı sərgi, habelə Azərbaycan milli geyimləri nümayiş etdirilib, http://azculture.uz/xeber.php?year=2019&news=187 (08.11.2019).

etmişlər.[16] 2019-cu ildə isə Özbəkistanın Fərqanə Vilayətinin Riştan şəhəri, həmçinin Daşkənddəki "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyəti (ÖADC) rəhbərliyinin Azərbaycanın İsmayıllı rayonuna səfər etmiş, İsmayıllı şəhərində "Azərbaycan-Özbəkistan Dostluq Parkı" açılmışdır. Tədbirlərdə Özbəkistan mümayəndə heyətinin tərkibində Nazirlər Kabinetinin yanında Xarici ölkələrlə dostluq əlaqələri, millətlərarası münasibətlər üzrə komitənin İdarə rəisi Feruz Bekov, Özbəkistan–Azərbaycan Dostluq Cəmiyyətinin icraçı direktoru, Nizami adına Daşkənd Dövlət Pedaqoji Universitetin kafedra müdiri, professor Erkin Nuriddinov, Riştan rayon hakimi Tavakalcon Raximov, Fərqanə Vilayət hakiminin mətbuat xidmətinin və Mətbuat Mərkəzinin rəhbəri Abdusalam Siddikov, Riştan rayon hakiminin investisiya, inovasiya və turizmin inkişafı üzrə müavini İslam Madaminov və müxtəlif sənət sahələrinin mütəxəssisləri iştirak etmişdilər.[17]

2020-ci ildə bütün dünyada Koronovirus (COVİD-19) virusunun yayılması ilə əlaqədar Pandemiya elan edildi. Dövlətlər Pandemiya ilə mübarizədə səylərini birləşdirdilər və bir-birinə kömək etdilər. Özbəkistan və Azərbaycan dövlətləri də bir-birinə humanitar yardımlar göndərdilər. Bununla yanaşı, Özbəkistanda fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi 2020-ci il ərzində "Biz birlikdə güclüyük" devizi altında xeyriyyə aksiyası keçirdi, müxtəlif vaxtlarda imkansız ailələrə, uşaq evinə yardımlar göstərdi.[18]

Ümumiyyətlə, diasporanın fəaliyyətini, keçirdikləri tədbirləri təhlil edərək Özbəkistanda Azərbaycanın təbliği üçün görülən işlərin məzmununu aydınlaşdıra bilirik. Keçirilən tədbirlər əsasən tarix, vətənpərvərlik, mədəniyyət, milli adət-ənənələr, ədəbiyyat və digər sahələrə aid mövzuları əhatə edir. Beləliklə, Azərbaycanda baş verən hadisələrlə əlaqədar Özbəkistan ictimaiyyətini məlumatlandırır, KİV-də məqalələrlə çıxış edirlər. Onlar ancaq Özbəkistan daxilində fəaliyyətlə kifayətlənmir, Azərbaycanla da əlaqə saxlayır; burada Özbəkistan və Azərbaycanın ortaq tarixi və mədəniyyətinə aid tədbirlərin keçirilməsinə diqqət ayırırlar. Diasporanın fəaliyyətində ən həssas mövzu isə Azərbaycan torpaqlarının işğal edilməsi mövzusu olmuşdur.

---

[16] Delegasiya Obshestva drujbi Uzbekistan-Azerbaydjan naxoditsya s vizitom v Baku, https://www.trend.az/casia/uzbekistan/2281709.html (04.06.2014).

[17] İsmayıllı rayonunda Azərbaycan - Özbəkistan Dostluq Parkı açılıb, https://kaspi.az/az/ismayilli-rayonunda-azerbaycan-zbekistan-dostluq-parki-acilib (27.04.2019).

[18] Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi "Biz birlikdə güclüyük" devizi altında xeyriyyə aksiyası keçirib, http://azculture.uz/xeber.php?year=2020&news=34 (08.04.2020); Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Daşkənddəki uşaq evlərinə, sosial vəziyyəti zəif olan yerli azərbaycanlılara Ramazan bayramı sovqatı göndərib, http://azculture.uz/xeber.php?year=2020&news=48 (23.05.2020).

## Diasopa təşkilatlarının Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində və Vətən müharibəsi dövründə fəaliyyəti

XX. əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı müharibəyə başlaması və Azərbaycan ərazilərini işğal etməsi Özbəkistanda yaşayan azərbaycanlıların etirazlarına səbəb oldu. Özbəklər bolşeviklərin Mərkəzi Asiyanı işğalı zamanı ermənilərlə birlikdə həyata keçirdikləri soyqırımları unutmayıblar. Dağlıq Qarabağ problemi və müharibə oxşar taleyi yaşayan xalqları daha da yaxınlaşdırdı.[19] Beləliklə, Özbəkistanda erməni diasporası fəal olsa da, həmin dövrün tələblərinə uyğun olaraq Ermənistanla diplomatik əlaqələr qurulmadı. Özbəkistanda Xocalı soyqırımına aid tədbirlərdə bu faciənin ermənilər tərəfindən bütün türklərə qarşı həyata keçirilən soyqırımların davamı olduğu vurğulanır. Bu səbəbdən, Özbəkistan respublikası Azərbaycan ərazilərini işğal etdiyi üçün Ermənistanla diplomatik əlaqələr yaratmamışdır.[20] Özbəkistan dövləti və xalqı birmənalı olaraq Azərbaycanın torpaqlarının işğalına görə Ermənistanla əlaqələr qurmur və Azərbaycanın haqlı mövqeyini müdafiə edir. Özbəkistan Ermənistanla diplomatik əlaqə qurmayan yeganə keçmiş SSRİ dövlətidir.

Azərbaycan diaspor təşkilatları müntəzəm olaraq Azərbaycan tarixi, həmçinin I Qarabağ müharibəsinin tarixi, işğal edilən şəhər və rayonların tarixi, dağıdılan maddi-mədəniyyət abidələri ilə əlaqədar təşkil etdikləri tədbirlərdə Özbəkistan ictimaiyyəti fəal iştirak edir. Məsələn, müharibənin həqiqətlərini və çətinliklərini, Azərbaycan xalqının işğalçılara qarşı mübarizəsini əks etdirmək məqsədilə 2019-cu ildə Özbəkistanın Daşkənd və Səmərqənd şəhərlərində “Azərbaycanın Milli Qəhrəmanı” İbad Hüseynli ilə görüş keçirilmişdir.[21] Belə görüşlər müharibənin dəhşətlərini göstərməklə yanaşı, Azərbaycan həqiqətlərinin təbliğində, gənclərdə milli vətənpərvərlik hisslərinin güclənməsində də mühüm əhəmiyyət daşıyır.

Real qəhrəmanlarla görüşlərlə yanaşı münaqişə barədə elmi konfransların keçirilməsi ictimaiyyətinin elmi əsaslar üzərində müzakirə aparması üçün faydalı olur. Bu səbəbdən, 2020-ci il sentyabrın 5-ində Azərbaycan və Özbəkistan arasında “Ermənistanın Azərbaycan torpaqlarının işğalı, məskunlaşdırma siyasəti, məhv edilən

[19] Shuhrat Salamov Sh. (Barlas), *Dashnaki ot Fergany do Karabaha*, Savad, Baku 2019 .
[20] Dvustoronnie Otnosheniya. Uzbekistan, Sait Ministerstva Inostrannyh Del Respubliki Armeniya, 07 Şubat 2015, https://www.mfa.am/ru/bilateral-relations/uz (20.11.2019).
[21] Özbəkistanda İbad Hüseynli ilə görüş keçirilib, https://azertag.az/xeber/Ozbekistanda_Ibad_Huseynli_ile_gorus_kechirilib-1277584 , (02.05.2019).

maddi-mədəniyyət nümunələri" adlı beynəlxalq onlayn konfrans keçirilmişdir. [22] Konfransda hər iki dövlətin ictimai-siyasi xadimləri, millət vəkilləri və tədqiqatçıları iştirak etmişdir. Bu beynəlxalq konfransda müzakirə edilən mövzular eyni zamanda ictimaiyyətin tarixi faktlar və beynəlxalq prinsiplərə uyğun davranmaq baxımından məlumatlandırılmasında mühüm əhəmiyyət daşımışdır və sentyabrın sonunda başlayan Vətən müharibəsində Özbəkistan ictimaiyyətinin aktiv mövqe bildirməsinə mühüm təsir etmişdir.

2020-ci ilin iyul və sentyabr aylarında baş verən təxribatlar da Özbəkistanda yaşayan azərbaycanlıların etirazlarına səbəb olmuş, toplantılar keçirmiş və KİV-də bu barədə materiallarla çıxış etmiş, dünya ictimaiyyətinə müraciətlər ünvanlamışlar.[23]

Sentyabrın 27-də Ermənistanın növbəti təxribatına cavab olaraq Azərbaycan ordusu Zəfər yürüşünə başladı. II Qarabağ müharibəsi və ya Vətən müharibəsi adlandırılan və 44 gün davam edən müharibədə 30 ildir işğal altında olan əraziləri azad etdi. Müharibə günlərində Özbəkistanda fəaliyyət göstərən Azərbaycan diasporasının nümayəndələri beynəlxalq və regional təşkilatlara müraciət etmiş, ermənilərin beynəlxalq konvensiya və prinsipləri kobud şəkildə pozmasını faktlarla göstərərək ədalətsizliyə son qoymağa çağırış etmişlər. Oktyabrın 19-da Azərbaycan respublikasının Özbəkistandakı səfirliyində 10 və 17 oktyabrda Gəncə şəhərinə gecə vaxtı raketli bombaların atılmasına etiraz aksiyası keçirilmişdir. Aksiyada Özbəkistan Xarici İşlər Nazirliyinin Müstəqil Dövlətlər Birliyi departamentinin şöbə müdiri Fatulla Abduraxmanov, Türkiyənin, Pakistanın və Əfqanıstanın Özbəkistandakı səfirləri Mehmet Surayya Er, Sayid Ali Asad Gilani və Əhməd Xamid Elmi, Daşkənddə yaşayan azərbaycanlılar, qardaş özbək xalqının nümayəndələri, azərbaycanlı gənclər iştirak etmişdir. [24] Aksiyada birlikdə iştirak edən dörd dost dövlət beynəlxalq aləmdə Azərbaycanın haqqlı mövqeyini müdafiə etdiklərini, azərbaycanlıların yanında olduqlarını dünyaya bir daha göstərdilər. Diaspora təşkilatlarının nümayəndələrinin, Özbəkistanda yaşayan və təhsil alan azərbaycanlıların çətin günlərdə səfirliyə yığışması

[22] "Ermənistanın Azərbaycan torpaqlarının işğalı, məskunlaşdırma siyasəti, məhv edilən maddi-mədəniyyət nümunələri" adlı beynəlxalq konfrans keçirilib, http://azculture.uz/xeber.php?year=2020&news=80 (07.09.2020).

[23] Azerbaydjanskaya diaspora v Uzbekistane obratilasi k mejdunarodnım orqanizaciyam v svyazi s armyanskoy provokaciey, https://www.trend.az/azerbaijan/karabakh/3309347.html (03.10.2020); Azerbaydjanskaya diaspora Uzbekistana napravila zayavlenie predsedatelyu ispolkoma SNG, https://www.trend.az/azerbaijan/politics/3317482.html (15.10.2020).

[24] Azərbaycanın Özbəkistandakı səfirliyində Ermənistanın işğalına son qoyulması, Gəncə və digər şəhərlərimizin raket atəşinə tutulması ilə bağlı etiraz aksiyası keçirilib, http://azculture.uz/xeber.php?year=2020&news=91&fbclid=IwAR1voJWHwYAh_bF9sfxF90_U8aALPncg2j1-uDMB_76uRaNg1CpjSL9JShc (19.10.2020).

onların Vətənə münasibətlərini və həmrəyliklərini, birliklərini qoruduqlarını təsdiq edir. Bu toplantılarda özbək xalqının iştirakı onların çətin günlərdə azərbaycanlılarla həmrəyliyini, dostluğunu nümayiş etdirdi.

Azərbaycan ordusunun Zəfər yürüşünə - uğurlu hərbi əməliyyatlarına davam gətirə bilməyən Ermənistan Şuşa şəhərinin azad edilməsi ilə məğlub oldu. Noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanan Bəyanat[25] əslində Ermənistan üçün kapitulyasiyadır. Azərbaycanın bu qələbəsi bütün dünyada yaşayan azərbaycanlılar tərəfindən təntənə ilə qeyd edildi. Azərbaycan Respublikasının Özbəkistandakı səfirliyi və Heydər Əliyev adına Mədəniyyət Mərkəzi tərəfindən birlikdə noyabrın 9-da Bayraq günü və Şuşanın işğaldan azad edilməsi, 12-də isə Qələbə münasibətlə bayram tədbiri təşkil edildi. Tədbirlərdə Özbəkistanda yaşayan və təhsil alan azərbaycanlılarla yanaşı, diaspora nümayəndələri, Özbəkistanın ictimai-siyasi xadimləri də iştirak etdilər.

44 gün davam edən Vətən müharibəsi zamanı diaspora nümayəndələri müntəzəm olaraq Özbəkistan mətbuatında Azərbaycanın haqq səsini əks etdirən materiallarla çıxış etmişdilər. Bununla həm Özbəkistan ictimaiyyətini, həm də Özbəkistanda yaşayan azərbaycanlıları daimi olaraq məlumatlandırmışdılar.

[25] Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı, https://president.az/articles/45924 (12.10.2020)

## Nəticə

Göründüyü kimi, Özbəkistanda yaşayan azərbaycanlıların təşkilatlanma prosesi zamanın tələblərinə uyğun başlamışdır. Azərbaycanlıların yaratdıqları təşkilatların əsas fəaliyyəti Azərbaycan və Özbəkistan dövlətləri arasında əlaqələrin inkişafına, xalqlar arasında dostluq bağlarının gücləndirilməsinə yönəlmişdir. Bu məqsədlə, onlar fəaliyyətlərini əsasən səfirliklə birlikdə və Azərbaycan dövləti ilə əlaqələr quraraq həyata keçirirlər. 2001-ci ildə keçirilən Dünya azərbaycanlılarının I qurultayı diaspora fəaliyyətinin Azərbaycan dövləti ilə birlikdə həyata keçilməsində yeni mərhələnin başlanğıcı olmuşdur. Bütün bu səylərin uğurla nəticələnməsi Özbəkistanda yaşayan azərbaycanlıların dövlətin ictimai həyatında fəal iştirak etdiklərini, eyni zamanda, onların Özbəkistanda siyasi problemlərinin olmadığını göstərir. Özbəkistanla tarixi və mədəni əlaqələr, həmçinin ortaq dəyərlər mədəniyyət sahəsində əlaqələri daha da effektli edir.

Araşdırma nəticəsində deyə bilirik ki, azərbaycanlıların diaspora fəaliyyəti Azərbaycanla əlaqələrin inkişafına, Azərbaycanın və milli dəyərlərin təbliğinə yönəlmişdir. Diaspora təşkilatlarının fəaliyyəti Azərbaycan və Özbəkistan arasında siyasi və mədəni əlaqələrin inkişafına müsbət təsir etmişdir. Bu əlaqələrin həyata keçirilməsində Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin, Respublika Azərbaycan Milli Mədəniyyət Mərkəzinin və onun filiallarının, Daşkənd şəhərində "Qardaşlıq" Azərbaycan Mədəniyyət Mərkəzinin mühüm iştirakı vardır. Özbəkistanda fəaliyyət göstərən diaspora təşkilatlarının nümayəndələri və rəhbərləri – Firdovsi Hüseynov, Akif Ağatalıbov, Şafkat Şaripov, Samir Abbasov, Fatma Piriyeva, Erkin Nuriddinov və başqaları əlaqələrin tarixi ənənənlər və sağlam təməllər üzərində qurulması və inkişafında, həmçinin Azərbaycanın təbliği istiqamətində mühüm xidmətlər göstərirlər.

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğal edilməsi, 1 milyondan artıq əhalinin hüquqlarının pozulması, işğal edilmiş ərazilərin tarixinin saxtalaşdırılması Azərbaycan diaspora təşkilatları tərəfindən hər zaman diqqətdə saxlanılmış və həqiqətlərin təbliğində bu təşkilatların böyük rolu olmuşdur. 2020-ci ilin iyul və sentyabr aylarında Ermənistanın Azərbaycana qarşı hərbi əməliyyatları da diaspora nümayəndələri tərəfindən etirazlara səbəb olmuş, dünyanın müxtəlif şəhərlərində,

həmçinin Özbəkistanda Azərbaycana dəstək mitinqləri keçirilmişdir. Vətən müharibəsinin qələbə ilə başa çatmasında informasiya dəstəyinin də böyük əhəmiyyəti olmuşdur və diaspora təşkilatları bu istiqamətdə ciddi fəaliyyət göstərmişlər. Özbəkistan respublikasında bu sahədə görülən işləri yüksək qiymətləndirə bilərik.

Digər dövlətlərdə Azərbaycanın təbliği, yerli xalqla əlaqələrin qurulması məqsədilə Özbəkistanda qazanılan təcrübənin öyrənilməsi və münasib regionlarda tətbiqi vacibdir.

Son illərdə Azərbaycan dövləti tərəfindən xaricdə yaşayan azərbaycanlıların diaspora fəaliyyətinin təşkili, üzə çıxan problemlərin həlli məqdəsilə bu mövzuların araşdırılması vacibdir.

## Kaynaklar

*Azərbaycan diasporu: böyük yolun başlanğıcı,* Çaşıoğlu, Bakı 2006.

*Azərbaycan diasporu*: *ensiklopedik məlumatlar toplusu*, Çaşıoğlu, Bakı 2012, s.214, s.286-288.

*Azərbaycan tarixi*, C.5-7, Elm, Bakı 2008.

*Etnicheskii atlas Uzbekistana,* OOFS-Uzbekistan i LIA "R. Elinina" 2002, s.15-18.

ƏLİYEV, H., *Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.* C.10. Azərnəşr, Bakı 1998, s.218-230.

KULIYEVA S., "Özbekistan`da Yaşayan Azerbaycanlı Toplumu: Tarihsel-Demografik Araştırma". *Oğuz-Türkmen Araştırmaları Dergisi,* C. II, S.1, Haziran, Bilecik 2018, s.27-52.

RUINTƏN, S., *Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri),* Adiloğlu, Bakı 2005.

SALAMOV Sh. (Barlas), *Dashnaki ot Fergany do Karabaha,* Savad, Baku 2019
*Uzbekiston umumii uiimiz,* «Uzbekiston» nashriyot-matbaa ijodii uii, Toshkent 2004, s.131.

Vsesoyuznaya Perepisı Naseleniya 17 Dekabrı 1926 Qoda. Narodnostı I Rodnoy Yazık SSSR. Tabliça I, Naselenie Po Polu, Narodnosti I Kateqoriyam Naselennıx Mest Po Soyuznım Respublikam, Tom 10, İzdanie ÇSU Soyuza SSR, Moskva 1928, s.16-17.

Vsesoyuznaya perepis' naseleniya 1959 goda. Nacional'nyi sostav naseleniya po respublikam SSSR, RGAE RF (byv. CGANH SSSR), fond 1562, opis' 336, ed.hr. s.1566a -1566d .

Vsesoyuznaya perepis' naseleniya 1979 goda. Nacional'nyi sostav naseleniya po respublikam SSSR, RGAE RF (byv. CGANH SSSR), fond 1562, opis' 336, ed.hr. s.6174-6238.

Vsesoyuznaya perepis' naseleniya 1989 goda. Nacional'nyi sostav naseleniya po respublikam SSSR, Tablica 9s. Raspredelenie naseleniya po nacional'nosti i rodnomu yazyku, http://www.demoscope.ru/weekly/ssp/sng_nac_89.php?reg=4 (05.05.2018).

## İnternet Siteleri

Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı, https://president.az/articles/45924 (12.10.2020).

Azərbaycanın Özbəkistandakı səfirliyində Ermənistanın işğalına son qoyulması, Gəncə və digər şəhərlərimizin raket atəşinə tutulması ilə bağlı etiraz aksiyası keçirilib, http://azculture.uz/xeber.php?year=2020&news=91&fbclid=IwAR1voJWHwYAh_bF9sfxF90_U8aALPncg2j1-uDMB_76uRaNg1CpjSL9JShc (19.10.2020).

Azerbaydjanskaya diaspora Uzbekistana napravila zayavlenie predsedatelyu ispolkoma SNG, https://www.trend.az/azerbaijan/politics/3317482.html (15.10.2020).

Azerbaydjanskaya diaspora v Uzbekistane obratilasi k mejdunarodnım orqanizaciyam v svyazi s armyanskoy provokaciey, https://www.trend.az/azerbaijan/karabakh/3309347.html (03.10.2020).

Bakıdan gələn qonaqlar yeni yaradılan Məhəmməd Füzuli adına Azərbaycan Mədəniyyət, Təhsil və Tədqiqatlar Mərkəzində olublar, http://azculture.uz/xeber.php?year=2019&news=185&fbclid=IwAR218ZXne2csRRi_Up5oWzMZkhVFeRHNoVwSb3ZZvLDsSLBIfPmh8TphIaw (06.11.2019).

Delegasiya Obshestva drujbi Uzbekistan-Azerbaydjan naxoditsya s vizitom v Baku, https://www.trend.az/casia/uzbekistan/2281709.html (04.06.2014).

Dvustoronnie Otnosheniya. Uzbekistan‖, Sait Ministerstva Inostrannyh Del Respubliki Armeniya, 07 Şubat 2015, https://www.mfa.am/ru/bilateral-relations/uz (20.11.2019).

"Ermənistanın Azərbaycan torpaqlarının işğalı, məskunlaşdırma siyasəti, məhv edilən maddi-mədəniyyət nümunələri" adlı beynəlxalq konfrans keçirilib, http://azculture.uz/xeber.php?year=2020&news=80 (07.09.2020).

Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi, http://azculture.uz/az/index.html (05. 01.2020).

İsmayıllı rayonunda Azərbaycan - Özbəkistan Dostluq Parkı açılıb, https://kaspi.az/az/ismayilli-rayonunda-azerbaycan-zbekistan-dostluq-parki-acilib (27.04.2019).

Özbəkistanda keçirilən "Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri" çərçivəsində "Əbədi dostluğumuz" adlı sərgi, habelə Azərbaycan milli geyimləri nümayiş etdirilib, http://azculture.uz/xeber.php?year=2019&news=187 (08.11.2019).

Özbəkistanda Azərbaycan haqqında müxtəlif nominasiyalar üzrə "İlin qalibləri" müsabiqəsinə yekun vurulub, https://azertag.az/xeber/Ozbekistanda_Azerbaycan_haqqinda_muxtelif_nominasiyalar_uzre_Ilin_qalibleri_musabiqesine_yekun_vurulub-1677623?fbclid=IwAR0IbPszIn7gzvy5LlF5Nu-CAVVgyTIRMV_ewo-UKmikpxfAkLXIYFQ4-h8#.X-1wFZdiKSU.facebook (29.12.2020).

Özbəkistanda fəaliyyət göstərən diaspora təşkilatları. Diaspor xəritəsi, Diasporla İş üzrə Dövlət Komitəsinin saytı, http://diasporamap.com/az/country/250 (20.09.2020).

Özbəkistanda İbad Hüseynli ilə görüş keçirilib, https://azertag.az/xeber/Ozbekistanda_Ibad_Huseynli_ile_gorus_kechirilib-1277584 (02.05.2019).

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi “Biz birlikdə güclüyük” devizi altında xeyriyyə aksiyası keçirib, http://azculture.uz/xeber.php?year=2020&news=34 (08.04.2020).

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi Daşkənddəki uşaq evlərinə, sosial vəziyyəti zəif olan yerli azərbaycanlılara Ramazan bayramı sovqatı göndərib, http://azculture.uz/xeber.php?year=2020&news=48 (23.05.2020).

Respublikanskiy Azerbaydjanskiy Naçionalınıy Kulıturnıy Çentr, http://raznkc.uz/index.php?option=com_content&view=article&id=46&Itemid=58 (02.06.2018).

Özbəkistanda Azərbaycana dair “İlin ən fəalları, yaxşıları” müsabiqəsinin qalibləri mükafatlandırılıb, http://azculture.uz/xeber.php?year=2019&news=216 (04.01.2020).